*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 11-18*
https://doi.org/10.62837/2024.6.11

**OQTAY CƏLİLBƏYLİ**
**MƏRYƏM XOCANƏZƏRZADƏ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**Ünvan: Bakı şəhəri, AZ-1148, Z. Xəlilov küç., 33**
**E-mail: jalilbeyliogtayeg@gmail.com**
**E-mail: xocanazer@gmail.com**

# AZƏRBAYCAN VƏ YAPON DİLLƏRİNDƏ ONOMATOPOETİK LEKSİKANIN MÜQAYİSƏLİ TƏDQİQİ

***Xülasə***

*Onomatopoetik leksika təbiətdə mövcud olan səsləri təqlid edən sözlərin ümumi adıdır. Bu məqalədə Altay dil ailəsi nəzəriyyəsi kontekstində Azərbaycan və yapon dillərinin onomatopoetik leksikaları tədqiq edilir, bu iki dil arasındakı oxşarlıqlar araşdırılır. Zəngin onomatopoetik leksikaya malik olan hər iki dilin onomatopoeik sözləri təhlil edildikdən sonra üçüncü bir dil-ingilis dili ilə müqayisə olunur. Onomatopoetik ifadələrin müqayisəli təhlili vasitəsilə biz ümumi dil əcdadının fərziyyəsini dəstəkləyən maraqlı əlaqələri ortaya qoyuruq. Tədqiqatımız təkcə dilçilik və mədəniyyətşünaslıq sahələrinə töhfə verməklə kifayətlənmir, həm də Altay dil ailəsi nəzəriyyəsi üçün sübutlar təqdim edir.*

***Açar sözlər:*** *təqlidi sözlər, onomatopoetik leksika, gitayqo, giseyqo*

**ОКТАЙ ДЖАЛИЛБЕЙЛИ**
**МАРЬЯМ ХОДЖАНАЗАРЗАДЕ**

# СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ ОНОМАТОПОЭТИЧЕСКОЙ ЛЕКСИКИ В АЗЕРБАЙДЖАНСКОМ И ЯПОНСКОМ ЯЗЫКАХ

***Резюме***

*Звукоподражательная (ономатопоэтическая) лексика — общее название слов, имитирующих звуки, существующие в природе. В данной статье звукоподражательные лексиконы азербайджанского и японского языков изучаются в контексте теории алтайской языковой семьи, а также исследуются сходства между этими двумя языками. Проанализировав звукоподражательные слова обоих языков, имеющих богатую звукоподражательную лексику, они сравниваются с третьим языком - английским. Путем сравнительного анализа звукоподражательных выражений мы выявляем интересные связи, подтверждающие гипотезу об общем языковом предке. Наше исследование не только вносит вклад в области лингвистики и культурологии, но также предоставляет доказательства теории алтайской языковой семьи.*

***Ключевые слова:*** *звукоподражание, звукоподражательная лексика, гитайго, гисейго*

**OGTAY JALILBAYLI**
**MARYAM KHOJANAZARZADA**

## COMPARATİVE STUDY OF ONOMATOPOETİC LEXİCONS İN AZERBAİJANİ AND JAPANESE LANGUAGES

***Summary***

*Onomatopoeic lexicon is a general name for words that imitate sounds that exist in nature. In this article, the onomatopoeic lexicons of the Azerbaijani and Japanese languages are studied in the context of the Altaic language family theory, and the similarities between these two languages are investigated. After analyzing the onomatopoeic words of both languages, which have a rich onomatopoeic lexicon, they are compared with a third language - English. Through a comparative analysis of onomatopoeic expressions, we reveal interesting relationships that support the hypothesis of a common language ancestor. Our study not only contributes to the fields of linguistics and cultural studies, but also provides evidence for the Altaic language family theory.*
***Key words****: onomatopoeia, onomatopoeic lexicon, gitaigo, giseygo*

Onomatopoetik sözləri bildirmək üçün Azərbaycan dilində “yansıma sözlər” və “təqlidi sözlər” kimi terminlər işlədilir. Təqlidi sözlər səsi və obrazın görünüşünü təqlid edən leksik vahidlərə verilmiş ümumi addır. Təəssüf ki, Azərbaycan dilində onomatopoetik sözlərin araşdırılmasına kifayət qədər diqqət yetirilməyib, belə ki, məktəb dərsliklərində belə bu mövzu barədə kifayət qədər məlumat tapmaq mümkün deyildir. Azərbaycan dilinə onomatopoetik sözlərin araşdırılmasında ən böyük töhfə M. Adilov tərəfindən verilib, onun *“Azərbaycan dilində təqlidi sözlər”* əsərində bu barədə geniş məlumat verilib. M. Adilov Azərbaycan dilində onomatopoetik sözlərin mənaca təsnifatını belə tərtib etmişdir: səs və obraz təqlidi sözlər. [2; s. 313] O.Cəlilbəyli isə bu barədə yazmışdır: “L.N.Xaritonov feilin üç növünü qeyd etmişdir: 1) iş-vəziyyət feilləri; 2) səs təqlidi feillər; 3) obrazlı feillər.” [3; s. 273] Biz də bu məqalədə bu terminlərdən istifadə edəcəyik.

Canlıların və cansızların çıxardığı səsləri təqlid edən sözlərə *səs təqlidi sözlər* deyilir. Təbii ki, canlı və cansızların səsi tam şəkildə bizim təqlid etdiyimiz kimi səslənmir. Bu cür sözlər yalnız təxmini şəkildə həmin səsləri təqlid edə bilərlər. Səs təqlidi sözlərinə aşağıdakıları misal göstərmək olar:
*“Bir az uzaqdan trap-trup səsi eşidildi” (A.Şaiq)*
*“Xırr… Qatar dayandı” (“Mərkəz adamı”, Mir Cəlal)*
*“Qayadan su damcılayır: çıp-çıp, çıp-çıp” (Y.Həsənbəyov)*
*“Bu ilki sərçə bildirkinə cük-cük öyrədir” (Atalar sözü)*

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 11-18
Hərəkətin, əşyanın xarici görkəmini təqlid edən sözlərə *obrazlı sözlər* deyilir. Yəni səs təqlidi sözlər eşitmə duyğuları ilə, obrazlı sözlər isə görmə duyğuları ilə bağlıdır. Obrazlı sözlərə aşağıdakıları misal göstərmək olar:

*"Parıl-parıl ətrafına şölə salır" ("Bakının dastanı", S.Vurğun)*

*"Bıldır-bıldır gözünün yaşı rəva oldu" (Kitabi-Dədə Qorqud)*

*"Yerlər, göylər parıldar işıl-işıl" ("İlk bahar" şeiri, H.Cavid)*

*"– Tökərək gözlərindən gildir-gildir yağışlar; Məni qurtar, deyirdi, o yalvaran baxışlar." ("İldırım" poeması, S.Rüstəm)*

Yapon dili leksikasındakı onomatopoetik sözlər həcminə görə fərqlənir. Belə ki, o, təqlidi sözlərin sayına görə yalnız Koreya dilindən geri qalır. Azərbaycan dilinin onomatopoetik leksikasından fərqli olaraq bu dildə onomatopoetik sözlər çox geniş tədqiq olunub. Yapon dilində onomatopoetik sözlərin mənaca təsnifatını bir çox müəlliflər fərqli tərtib ediblər. Məsələn, Tacima Kaori onomatopoetik sözlərin əsas olaraq *gionqo* və *gitayqo* qruplarına bölündüyünü yazmışdır. Onun məqaləsində [4; s. 194] *giseyqo* gionqonun tərkibində, *gicoqo* isə gitayqonun tərkibində verilir. Biz daha aydın və anlaşıqlı olması üçün onomatopoetik sözləri 5 qrupda təsnif edəcəyik: *giseyqo, gionqo, gitayqo, giyoqo, gicoqo.*

Giseyqo (擬声語) insan və heyvan səslərini təqlid edən sözlərin terminidir. Məsələn, クスクス[kusu-kusu] xısın-xısın gülməyi təqlid edir. うわーん[uvān] körpə uşağın ağlamasını təqlid edir. めーめー[mē-mē] qoyunun, ぶーぶー[bū-bū] isə donuzun səsinin təqlidi sözləridir.

Gionqo (擬音語) təbiətdəki səsləri təqlid edən sözlərin terminidir. Gionqo insan və heyvanın çıxarmadığı bütün səsləri təqlid edir. Qapının çırpılması, telefon zəngi, küləyin səsini təqlid edən sözlər gionqo adlanır. Məsələn: ゴロゴロ[qoro-qoro] ildırım səsini, ザーザー[zā-zā] leysanın səsini təqlid edir.

Gitayqo (擬態語) vəziyyəti, halı ifadə edən təqlidi sözlərin terminidir. Məsələn, ホカホカ[hoka-hoka] isti bədən, isti yeməyi ifadə edərkən istifadə olunur. ひんやり[hinyari] soyuğu ifadə etmək üçün istifadə olunur.

Giyoqo (擬容語) hərəkəti təqlid edən sözlərin terminidir. Məsələn, ウロウロ[uro-uro] boş-boş gəzməyi, ガクガク[qaku-qaku] dizlərin əsməyini bildirir.

Gicoqo (擬情語) hissləri bildirən təqlidi sözlərin terminidir. Məsələn, うっとり[uttori] gözəllik qarşısında heyran qalmağı, モヤモヤ[moya-moya] narahat olmağı bildirir.

Azərbaycan dilində təqlidi sözlər quruluşca müxtəlif formalarda olurlar. Sadə təqlidi sözlər ya iki, ya da üç səsdən, bir hecadan ibarət olurlar. Məsələn: vız, cız, taq, tıq, şıq, mır, fıs, puf və s.

Təqlidi sözlərin istifadəsi zamanı biz sırf kökdən ibarət olanlara az rast gəlirik. Onlar çox vaxt təkrar şəklində olurlar. Məsələn:

*"Qız ürəyimi tıp-tıp döyündürürdü" (S.Rəhman)*

Yuxarıdakı birhecalı təqlidi sözlərə bir səs və ya bir hecadan ibarət struktur ünsürlər qoşulurlar. Bu ünsürlərin qoşulması ilə kəmiyyət fərqi ortaya çıxacaq. Məsələn bir

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 11-18*

səsdən ibarət olanlara g, k, q, b, p, ç, t aiddir. Onlar birhecalı təqlidi sözlərə qoşulduqda həmin sözlərə məna çalarlığı verirlər. Məsələn: *çırt, ding, dınq, zınq, zing, şapp, xırç, nırç, pıqq və s.*

Əgər bir səsdən ibarət olan strukturun qoşulduğu təqlidi sözün son səsi ilə eynilik təşkil edirsə, bu uzunmüddətliliyi əks etdirir. Məsələn: *şırr, pırr, pıqq, şaqq və s.* Eyni şəkildə uzunmüddətliliyi bildirmək üçün saitlə bitən təqlidi sözlərə son saiti ilə eyni sait səs qoşulur. Məsələn qarğanın "qa" səsi çıxarmasına baxmayaraq əgər bu səsi uzunmüddətli çıxarsa "qaa" olaraq yazmaq lazım gələcək.

Təqlidi sözlərə -ır, -ir, -ur, -ür və -ıl,-il,-ul,-ül ünsürləri də qoşulur. Lakin həmin təqlidi sözlər tək işlənə bilmirlər, onlar təqlidi söz kimi təkrarlanmağa məcburdurlar. Əks halda isimlərin və feillərin tərkib hissəsi kimi istifadə olunurlar. Misal olaraq "par" təqlidi sözünü götürək. Ona -ıl struktur ünsürünü əlavə etdik: parıl. Parıl sözü ayrılıqda işlənə bilməz, lakin təqlidi söz kimi təkrarlanaraq (*parıl-parıl)* və isim *(parıltı)* və feillərin *(parıldamaq)* tərkib hissəsi olaraq işlənə bilər.

Azərbaycan dilində olduğu kimi yapon dilində də, onamatopoetik sözlərin bir çox forması vardır. Hiroko İnose bu formalardan əsaslarını göstərmək üçün "paçi" səsini əsas götürmüşdür. [5; s. 101] Digər formalar bu səsin əsasında yaranmışdır. Birinci formada onomatopoetik söz təkrar şəkildə verilmişdir. パチパチ (paçi-paçi) sözü əl çalmağı təsvir edən bir onomatopoetik sözdür. İkinci formada həm っ, həm də りünsürlərini istifadə edək. Onların yaratdığı söz パッチリ (paççiri) geniş açılmış parlaq gözləri təsvir edir. Üçüncü formada əsas kiçik っ rol oynayır. Onun yaratdığı パチっ (paçit) sözü kameranın səsini təqlid edir. Dördüncü formada əsasa り qoşulmuşdur, beləliklə, qəfil, qısa müddətli səsi ifadə etmək üçün istifadə olunan パチリ(paçiri) yaranır. Son olaraq ん ünsürü ilə yaranan パチン (paçin) sözü isə qəfildən baş verən bir hadisəni ifadə edərkən istifadə olunur. ん *sonluğu*-onomatopoetik sözlərdə ん sonluğu səsi ifadə edərsə əks-sədanı, digər halda isə davamedici bir prosesi təqlid edilir.

Hər iki dildə struktur ünsürlər yeni təqlidi sözlər əmələ gətirir. Azərbaycan dilində bu əsasən -ır$^4$, -ıl$^4$ stuktur ünsürləri ilə olursa, yapon dilində ん、~り、っünsürləri ilə düzəlir. Azərbaycan və yapon dilləri arasındakı bu oxşarlığı bir daha təsdiqləmək üçün ingilis dili ilə müqayisə edək. Azərbaycan və yapon dillərindəki onomatopoetik sözlərdən fərqli olaraq ingilis dilində onomatopoetik sözlər söz yaradıcılığında iştirak edə bilmirlər. Onlar struktur ünsürlər qəbul edib yeni təqlidi söz yaratmırlar. Aşağıdakı cədvəldəki nümunələrə diqqət yetirək.

| Azərbaycan dilində | | Yapon dilində | | | İngilis dilində |
|---|---|---|---|---|---|
| -ıl$^4$ | -ır$^4$ | ~り | ~ん | ~っ | - |
| Par**ıl**-par**ıl** | Danq**ır**-dunq**ur** | パッチリ | パチン | パチット | İngilis dilində təqlidi sözlərə struktur ünsür qoşulmur və |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | onomatopoetik sözlər əsasən quruluşca sadə olurlar. Məsələn: *click, snap, pop, tick, clang, splash, crackle, crunch, slosh* və s. |

Həm yapon dilində, həm də Azərbaycan dillərində onomatopoetik sözlərdə sait dəyişikliyi həmin təqlidi sözün mənasında keyfiyyət dəyişikliyi yaradır.

Azərbaycan dilində onomatopoetik sözlərdə ən çox işlədilən saitlər a və ı saitləri hesab olunur. Səsin qapalı və ya açıq səslə təqlid olunmasının əhəmiyyəti böyükdür. Açıq saitdən istifadə olunubsa səs yüksəkdir, qapalı sait istifadə olunubsa deməli səs zəifdir, alçaqdandır. Mir Cəlalın "Tıq-tıq-tıq" hekayəsində çox aydın bir nümunə vardır. Hekayədəki qadın obraz Nazlı qapını döydükdə "tıq-tıq-tıq", əri Novruz isə qapını döydükdə "tak-tak-tak" təqlidi sözləri istifadə edilmişdi. Novruz obrazının hərəkəti daha kobud olduğundan onun qapıya vurduqda çıxardığı səs açıq saitlə ifadə olunmuşdu. [2; s. 319] Azərbaycan dilində buna əlavə olaraq aşağıdakı nümunələri əlavə edə bilərik.

Zing-zing: cingiltili zəng səsi. Zınq-zınq- adi zəng səsi.

Danq-danq: metal əşyalarla sərt zərbələr endirilərkən çıxan səslər, zərb alətlərindən çıxan səs. Dınq-dınq: Mis və başqa metallara vurulanda çıxan səs.

Cing-cing: cingiltili zəng səsidir. Cınq-cınq: metal əşyaların bir-birinə toxunarkən çıxardığı səs.

Yapon dilində də onomatopoetik sözlərdə sait dəyişməsi müşahidə olunur. Buna aid aşağıdakı nümunələri misal göstərə bilərik.

ドレスのスカートが風になびいて、**ひらひら**と舞い上がった。

(Doresu no sukāto ga kaze ni nabii te, **hira hira** to maiagatta.)

Donun ətəyi küləyin əsməsi ilə yüngülcə qalxdı.

木々が**はらはら**と葉を散らしていた。

(Kigi ga **hara hara** to ha o chirashite ita.)

Ağaclar yarpaqlarını yüngülcə tökürdü.

鈴木さんが風邪を引いて、**ゲホゲホ**と咳をしています。

(Suzuki san ga kaze o hiite, **geho geho** to seki o shiteimasu.)

Cənab Suzuki soyuqlayıb və yüngülcə öskürür.

**ゴホゴホ**と水を飲みながら、彼は話を続けました。

(**Goho goho** to mizu o nominagara, kare wa hanashi o tsuzukemashita.)

Su içərkən yüngülcə öskürərək danışmağa davam etdi.

Hər iki dildə onomatopoetik sözlər əsasən təkrar şəklində işlənilir. Azərbaycan dilinin onomatopoetik sözlərinə rast gəldiyimiz ən qədim mənbələr XI əsrə aiddir. Kitabi Dədə Qorqud, Mahmud Kaşğarinin lüğəti kimi qədim mənbələrdə dilimizin tərkibindəki təqlidi sözlər işlədilib. Lakin onların çoxu təkrar şəkildə olmuşdur. Çat-çat, zab-zab, çaldır-çaldır, buldur-buldur, qarç-qurç kimi sözlər Kaşğarinin lüğətində qeyd olunan təqlidi sözlərdən sadəcə bir neçəsidir. [2; s. 327]

Təqlidi sözlər lüğətlərdə də təkrar şəklində verilir. Bu təkrarlanan təqlidi sözlər feillərlə yanaşı işlənə bilir.

*Göydə iki qara bulud çatılaraq,*
*İldırımlar* ***şaqqıldayır şaraq-şaraq.*** *( "Yağış yağarkən" şeiri, M.Müşfiq)*

Təkrarlanan təqlidi sözlər həmçinin prosesin davamlı olduğunu bildirir. Yəni səs və ya hərəkət qəfil kəsilmir, davam edir. Bəzən bu cür sözlərdə sözün ikinci hissəsi dəyişikliyə məruz qalır. Məsələn: taq-tuq, hay-huy, şapır-şuppur, danqır-dunqur və s.

Bəzən "a" və "ha" ünsürlərinin vasitəsilə təqlidi sözlər yaranır. Belə təqlidi sözlərə aşağıdakı nümunələri vermək mümkündür.

"a" bitişdiricisi ilə: partapart, xırtaxırt, nırçanırç, guppagup, şaqqaşaq və s.

"ha" bitişdiricisi ilə: guphagup, şırhaşır, gurhagur, taraphatarap və s.

Yuxarıda yapon dilində onomatopoetik sözlərin formalarından danışarkən təkrarlanan formadan bəhs etdik. Yapon dilində təkrarlanan onomatopoetik sözlər çoxdur. Məsələn:

*「春の海終日のたりのたり哉。」*

Haru no umi hinemosu **notari notari** kana.

Bahar dənizi, bütün günü necə də sakitdir. *(Hayku şeiri, Matsuo Başo)*

*「昔のイタリア映画に出てくる戦災孤児みたいに痩せて、目だけがぎょろぎょろしていた。」*

Mukashi no italia eiga ni detekuru sensai koji mitai ni yasete me dake ga **gyoro gyoro** shite ita.

O, köhnə italyan filmlərindəki müharibə yetimləri kimi arıq idi, gözləri iri-iri açılmışdı. *("Norveç meşəsi", Haruki Murakami)*

Yapon dilində hecaların böyük bir hissəsi samit səslə başlayır. Samit səslərin ifadə edilməsində dakuten və handakuten rol oynayır. Bu simvollar samitin səsini dəyişdirir, əsasən cingiltili qarşılığına çevirir və onomatopoetik sözlərdə hansı samit səsin işlənməsi mühüm rol oynayır. Cingiltili samitlərin işləndiyi sözlər daha gur, sərt məna ifadə edir. Məsələn **ざらざら (zara-zara)** və **さらさら (sara-sara)** mənasına görə fərqlənir. さらさら hamar, ipək kimi mənasını versə də, ざらざら qaba, hamar olmayan mənasını verir.

Hər iki dildə oxşar onomatopoetik sözlər az da olsa mövcuddur. Bu cür sözlər əsasən gionqo, giseyqo və səs təqlidi sözlər olur. Bu iki dil arasındakı oxşarlığı əyani ifadə etmək üçün üçün üçüncü bir dil ilə müqayisə aparmaq daha məqsədəuyğundur. Aşağıdakı cədvələ nəzər yetirək.

| Yapon dili | Azərbaycan dili | İngilis dili |
|---|---|---|
| **ゴロゴロ (qoro-qoro)** Bu onomatopoetik söz yapon dilində həm göy gurultusunu, həm də qarın qurultusunu bildirmək üçün istifadə olunur. | Azərbaycan dilində bu mənanı bildirən təqlidi sözlər müstəqil işlənməsə də, isimlərin və feillərin tərkibində mövcuddurlar. Göy **gur**ultusu, göy **gur**uldayır. Qarın **qur**ultusu, qarın **qur**uldayır. Təqlidi sözlərə feil və isim düzəldən şəkilçilər qoşularaq bu sözlər yaranmışdır. Lakin yapon dilindəki onomatopoetik sözlə semantik və fonetik cəhətdən yaxınlığı mütləq nəzərə alınmalıdır. | İngilis dilindəki onomatopoetik söz digər iki dildən kəskin fərqlənir. Çünki ingilis dilində göy gurultusunun səsi **boom** [buːm] , qarın qurultusu isə **growl** [graʊl] onomatopoetik sözləri ilə ifadə edilir. |
| **クスクス (Kusu-kusu)** Bu onomatopoetik söz isə xıs-xıs gülməyi təqlid edir. | Azərbaycan dilində bu onomatopoetik sözün qarşılığı **xıs-xıs** olacaqdır. Bəzən -ın sturktur ünsürünü də qəbul edir: Xısın-xısın gülmək. Bu söz də iki dil arasında oxşar məna və tələffüzə malikdir. | İngilis dilində isə ”**tsk tsk”** [tɪsk tɪsk] və ya “**giggle”** [ˈɡɪɡ.l̩] onomatopoetik sözləri istifadə olunur. |

Bu cədvəldəki nümunələrdə də gördüyümüz kimi, ingilis dilindən fərqli olaraq Azərbaycan və yapon dilləri arasında müəyyən oxşarlıqlar mövcuddur. Bu da bir daha Azərbaycan və yapon dilləri arasındakı qohumluq əlaqəsi ehtimalını artırır.

## NƏTİCƏ

Altay dil ailəsinə mənsub dillərin aqlütinativ dillərə aid edildiyini nəzərə alaraq, Azərbaycan və yapon dillərində onomatopoetik sözlərin quruluşlarının öyrənilməsi nəticəsində hər iki dildə bu baxımdan müəyyən oxşarlıq müşahidə edirik. Struktur ünsürlər “kök”ə qoşulur və yeni onomatopoetik söz yaradır. Hind-Avropa dil ailəsinə aid olan ingilis dili ilə müqayisə etdik və ingilis dilinin bu xüsusiyyətə malik olmadığını müəyyənləşdirdik.

Hər iki dildə onomatopoetik sözlərin əsasən təkrar şəklində işlənməsi və təkrar onomatopoetik sözlərin bəzi xüsusiyyətlərinin üst-üstə düşməsini bu iki dil arasındakı oxşarlıqlara aid etdik. Son olaraq Azərbaycan və yapon dillərində oxşar tələffüzə malik onomatopetik sözlərin göstərilməsi və üçüncü bir dil ilə müqayisə olunması ilə oxşarlıqlar yenidən öz əksini tapdı.

## ƏDƏBİYYAT

Azərbaycan dilində

1. B.Ə.Xəlilov. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı: Nurlan, 2007, 354 s.
2. M.İ.Adilov. Azərbaycan dilində təqlidi sözlər. Bakı, 2019, ss. 311-416
3. O.B.Cəlilbəyli. Yapon dilində feil. 日本語の動詞. Bakı: "Elm və təhsil", 2022, 373 s.

Yapon dilində

4. 田嶋香織、(Tacima Kaori) オノマトペ (擬音語擬態語) について , 関西外国語大学留学生別科日本語教育論集 16, p. 193-205, 2006

İngilis dilində

5. Inose Hiroko. Translating Japanese onomatopoeia and mimetic words. Translation research projects 1. Tarragona, 2007. pp. 97-117.
6. Mizuno Ryotaro. Onomato pera-pera: An illustrated guide to Japanese onomatopoeia. Tokyo, 2014. p.189.

Türk dilində

7. Kahraman C. & Özkan Akdağ, A. (2023). Japonca ve Türkçe yansıma ikilemelerin fonosemantik açıdan karşılaştırmalı olarak incelenmesi. Rumelide Dil ve Edebiyat Araştırmaları Dergisi, (Ö12) 580-594 DOI10.29000/rumelide.1330577.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: prof., fil.e.d. Həcər Hüseynova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**